*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 282-291* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.282*

# Əcdad kultunun hökmdar paradiqması

**Zümrüd Mənsimova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA İctimai Elmlər Bölməsi
E-mail:zumrudibrahimqizi@gmail.com
Orcid: 0000-0002-8529-9018

**Annotasiya.** Məqalədə Azərbaycan folklorunda əcdad kultunun hökmdar paradiqması tədqiqata cəlb olunmuşdur. Oğuznamələrdə hökmranlıq prinsipinə necə yanaşılması, Oğuz xaqanın hakimiyyəti idarəetmə prinsipləri, haqqı bərqərar etmək istəyi, igidliyi, torpaqlarına – ata-baba yurd yerlərinə sahib çıxmaq bacarağı və.s məsələlər araşdırılır. Oğuzların dövlətçilik və vətənpərvərlik düşüncələri əcdad kultu kontekstində təhlil olunmaqla yanaşı, eyni zamanda ulu əcdadlarımızdan bizə gəlib çatan milli mənəvi dəyərlər, xaqanlıq və hökmdarlıq dəyərlərinə, eləcə də varislik ənənələrinə də məqalədə diqqət yetirilir və həmçinin hökmdarlıq anlayışı ilə bağlı "dövlət quşu" motivinin mahiyyəti və onun funksional-semiotik xüsusiyyətlərinin də araşdırılması da tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** əcdad, dövlət, Oğuz, "dövlət quşu", ordu, xalq

**Məqalə tarixçəsi:** göndərilib – 21.11.2025; qəbul edilib – 01.12.2025

# The Ruler Paradigm of Ancestral Cult

**Zumrud Mansimova**
Doctor of Philosophy in Philology, Associate Professor
Social Sciences Division of ANAS
E-mail:zumrudibrahimqızı@gmail.com

**Abstract.** In the article, the paradigm of rulership within the ancestor cult in Azerbaijani folklore is examined. The study explores how the principle of sovereignty is approached in the Oghuz epics, including Oghuz Khan's principles of governance, his pursuit of justice, his bravery, and his ability to reclaim and safeguard ancestral lands. Particular attention is given to issues related to ancestry, statehood, rulership, and administrative competence.
The article analyzes the Oghuz concepts of statehood and patriotism within the context of the ancestor cult. It also highlights the national and spiritual values inherited from our forefathers, the traditions of khaganate and rulership, as well as the customs of succession. Furthermore, the article investigates the essence of the "state bird" motif associated with the notion of rulership, along with its functional and semiotic characteristics.
**Keywords:** ancestor, state, Oghuz, "state bird", army, people

**Article history:** received – 21.11.2025; accepted − 01.12.2025

## Giriş / *Introduction*

Türk xalqlarının tarixində və coğrafiyasında hökmdarlıq və idarəçilik mövzusu mühüm yer tutur. Bu mövzu, həm yazılı ədəbiyyatda, həm də şifahi xalq ədəbiyyatında geniş şəkildə əks olunmuşdur. Məsələn, Nizami Gəncəvinin əsərlərində əvvəldən sonadək ədalətli və müdrik hökmdar görmək prinsipi təbliğ olunur.

Türk xalqlarının həyatında əsas rol oynamış hökmdar və idarəçilik anlayışı yalnız siyasi və hərbi gücü deyil, həm də əxlaqi, sosial və mədəni dəyərləri özündə birləşdirən əsas güc simvoludur. Türk xalqlarının tarixi soykökünü əks etdirən "Oğuznamə"də bu prinsip güclü təbliğ olunur. Həmçinin Azərbaycan folklorunda müdrik hökmdar obrazı xüsusi yer tutur. Bu obraz xalqın ideal rəhbər modelini təcəssüm etdirərək ədalət, mərdlik, uzaqgörənlik, təvazökarlıq və xalqın rifahına bağlılıq kimi dəyərləri özündə birləşdirir. Folklor nümunələrində müdrik hökmdar yalnız siyasi güc sahibi deyil, həm də mənəvi kamilliyə malik lider kimi təqdim olunur. "Kitabi-Dədə Qorqud" boylarında Oğuz bəylərinin davranış modeli, elin birliyinin qorunması və qərarvermə ənənələri bu arxetipin formalaşmasına mühüm təsir etmişdir.

Müdrik hökmdar obrazı, eyni zamanda türk dövlətçilik ənənələrindəki "alp", "bilgə" və "xaqan" konsepsiyalarının Azərbaycan folklor mühitində əks olunmuş forması kimi dəyərləndirilə bilər. Bu obraz tarix boyunca xalqın ideallaşdırdığı idarəçilik modelinin mədəni yaddaşda yaşamasının təzahürüdür. Hökmdarın ədalətli, güclü, mərhəmətli və xeyirxah olması önəmli bir məsələdir. Oğuz xaqanın səxavəti, haqqı bərqərar etmək istəyən ədalətli idarəçilik prinsipləri, igidlərə ad verib, doğru yol göstərməsi, eyni zamanda onun döyüşçü və strateji bacarığı böyük dəyərlər kimi önə çıxır. Taxt, hökmranlıq, torpaqları qorumaq Oğuz igidi üçün sahib olduğu qılınc, and yeri olan torpaq qədər müqəddəs idi. Padşahlıq taxtı tanrı tərəfindən seçilmişlərə və onların nəslindən olanlara verilir. Hər hökmdarın yanında ona yol göstərən bir müdrik ağsaqqalı olur. Əgər Bayandur xan, Qazan xan, dövləti idarəçilik qabilliyyəti, cəsarəti, qəhrəmanlağı ilə önə aparırdısa, Dədə Qorqud dədəlik, ağsaqqalıq statusu ilə elin rəğbətini və hörmətini qazanmış dədə ozanlardan idi. Oğuz min il ömür sürəndən sonra hakimiyyəti böyük oğlu Gün xana verir. Beləliklə, hakimiyyət, güc atadan oğula ötürülür [4, s.47].

Oğuzlar 24 boydan ibarət olmuşlar. Hökmdarlıq əsasən qohumluq bağlarına aid olmuşdur. Gün xan – oğlu Yavqu xan – Tuman xan, Göl Erki, Qayı Yavquy, Uladmur Yavquy, Kayı Yavquy, Qara Ali, Tuman xan, Göl Erki və beləcə, atadan oğula keçmə ənənəsi davam edir. Bu bir hökmdarlıq şəcərəsini və ənənəsini ortaya qoyur. Oğuzların soykökü haqqında məlumata biz Dədə Qorqud dastanının müqəddiməsində də təsadüf edirik [5, s.7-14].

## Əsas hissə / *Main Part*

"Oğuznamə"yə diqqət etsək, görərik ki, bütün idarəetmə sosial-siyasi, oğuz cəmiyyətini tarazlayan ənənəvi qayda-qanun yaratmaq, xalqlara ad vermək, düzən qurmaq onun hökmranlığı altında reallaşır. Hökmdar dediyimiz xaqan, elin, xalqın başında duran, haqqın, ədalətin, nizamın qoruyucusu kimi təqdim olunur. Folklorda onlar çox zaman tanrı tərəfindən seçilmiş, müqəddəs bir missiya daşıyan ali şəxslər olur. Müdrik hökmdarın gücü, qüvvəsi təkcə fiziki qüdrətlə deyil, ağıl, düşüncə, ədalət carçısı olmağı və cəsarəti, mərhəməti və xeyirxahlığı ilə əsas götürülür.

"Xaqan" titulu əsasən qədim türklərə xas titul kimi verilmişdir. Bu titul Göytürk imperiyasından başlayaraq Uyğur xaqanlığı, Xəzər xaqanlığı, Avar xaqanlığı və digər türk dövlətlərində istifadə edilmişdir.

Qayda-qanun yaratmaq, elin qeydinə qalmaq, məclislər qurmaq kimi bir sıra xüsusiyyətləri biz Oğuzun törəməsi olan Bayandur xana da şamil edə bilərik. Necə ki, Oğuz dünyanı fəth etdikdən sonra vətəninə qayıdaraq, oğuz igidlərini ətrafına toplayıb xüsusi bir ritual təşkil edirsə, eləcə də

“Kitabi-Dədə Qorqud”da rast gəldiyimiz ilk təsvir bu arxaik ənənənin izlərini əks etdirir. Hər hökmdarın yanında ona yol göstərən müdrik bilicisi, ağsaqqalı var. “Rəsul əleyhissalam zamanına yaxın Bayat boyundan, Qorqut ata deyərlər, bir ər qopdu. Oğuzun ol kişi bilicisiydi, – nə deyirsə, olurdu. Hardan desən, dürlü xəbər söyləyirdi” [6, s.31]. Deməli, Dədə Qorqud, Yuşi xoca, İrkıl xoca Oğuz eli üçün sayılıb-seçilən, hökmdara doğru yol göstərən, hər çətin anda elin gərəyi olan müdrik ağsaqqal statusuna malik güclü şəxslərdir, elin və xalqın qoruyucularıdır. T.Hacıyev yazır ki, “Qorqud bu əsərin qəhrəmanı deyil, heç əslində ona obraz da demək olmaz. O, bir rəmzdir – türkün ağsaqqala, müdrik söz sahibinə hörmətinin rəmzidir” [5, s.6]. Dədə Qorqud, İrkıl xoca kimi ozan müdrik ağsaqqalı olan elin, Oğuz xaqan Bayandur xan kimi xaqan hökmdarları olmalı idi. Ümumiyyətlə, “Oğuz” etnoniminin etimologiyası ilə bağlı irəli sürülən versiyalardan biri bu adın “möhkəm”, “bərk” mənası ilə əlaqələndirilməsidir. Hökmranlıq özündə bir sıra xüsusiyyətləri birləşdirir.

– Güc simvolu – Oğuz xaqan, Bayandur xan və Qazan xan gücü ədalətli hökmranlıq prinsiplərinə əsaslanan güc və birlik simvoludur;

– Müdriklik və uzaqgörənlik simvolunu – Oğuz xaqanın dünyanı fəth etməyi və həmin əraziləri el etməyi, fəth etdiyi əraziləri ağıllı, uzaqgörən və qolugüclü igidlərə həvalə etməyi onun müdriklik əlamətidir.

– Haqqın, ədalətin simvolunu – Oğuz xan el etdiyi yerlərin əhalisi ilə ədalətlə davranıb doğru qərarlar verir, dediyi söz də bütöv olur.

– Yalnız tabe olmaq istəməyənlərin önündə mübariz və mətin durur.

– Bu günün müstəvisindən qiymətləndirdikdə, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər, Azərbaycan dövlətinin siyasi iradəsinin, strateji uzaqgörənliyinin və peşəkar hərbi rəhbərliyinin nəticəsi olmuşdur. Haqq və ədalətin beynəlxalq müstəviyə çatdırılmasında, eləcə də müharibənin gedişinin dəqiq idarə edilməsində Ulu Öndərimizin layiqli davamçısı Ali Baş Komandan İlham Əliyevin göstərdiyi liderlik, dövlətçilik təfəkkürü və müdrik siyasət xüsusi rol oynamışdır. Onun fəaliyyətində uzaqgörənlik, müdriklik, siyasət və komandanlıq keyfiyyətləri aydın şəkildə təcəssüm edir. Akademik İsa Həbibbəyli çıxışlarının birində vurğulayır ki, “Azərbaycan Prezidenti İlham Əliyev müstəqil dövlətçilik yollarındakı dönməz mövqeyi, yaradıcı dühası, yorulmaz fəaliyyət ilə Heydər Əliyev epoxasını tamamlayıb və yeni tarixi era yaradıb. Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin əbədiyyət simvolu, Prezident İlham Əliyev isə onun müasir inkişaf strategiyasını müəyyənləşdirən qüdrətli lider və uzaqgörən idarəçisidir” [15].

Məlum olur ki, hökmran olmaq xalqı öz arxasınca çəkib apara bilən, sözüötən və eşidilən lider, xalqın gözündə qəhrəman kimi ucalan müdrik şəxsiyyət olmaq deməkdir. Hökmdarın şəxsində güc, ədalət, müdriklik, mərhəmət birləşəndə onu daha güclü edir. Hökmdarlıq anlayışı “Kitabi-Dədə Qorqud” dastanında da tez-tez vurğulanır. Eposda hakimiyyətin ali səviyyəsini ifadə edən “xanlar-xanı”, “bəylər -bəyi” kimi titul və ifadələrə geniş şəkildə rast gəlinir. Bu titullar Oğuz ictimai-siyasi quruluşunda hökmdarın nüfuzunu, sosial iyerarxiyanı və dövlətçilik ənənələrinin inkişaf səviyyəsini əks etdirir. Azərbaycan folklorunda hökmdarlıq anlayışı türk xalqlarının qədim dövlətçilik ənənələri, siyasi düşüncə tərzi və sosial quruluşu haqqında təsəvvürlərin kompleks şəkildə ifadəsinə xidmət edir. Folklor mətnlərində hökmdar obrazı təkcə siyasi lider deyil, həm də kosmik nizamın qoruyucusu, ədalət və haqqın təminatçısı, toplumun mənəvi-sosial birliyinin simvolu kimi təqdim olunur. Bütün bunlar Azərbaycan tarixində bir çox tarixi şəxsiyyətlərin – Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Şah İsmayıl Xətai, Şah I Abbas və başqalarının simalarında da həkk olunmuşdur.

Əcdad kultunun hökmdarlıq paradiqmasına gəlincə, biz Oğuznamələrdə Oğuzun hökmdarlıq qüdrətini əks etdirən bir sıra üstün və vacib cəhətlərə təsadüf edirik:

– Oğuz elini el etmək üçün torpaqlar fəth etmək məqsədilə müxtəlif ölkələrə yürüşlər edir;

– Oğuz yürüşlər etdiyi yerlərdə qəhrəmanlıq göstərən igidlərə ad verir;

– Ondan sonra gələn nəslin davamçıları həmin adın və soyun daşıyıcıları hesab edilir;

– Oğuz və ondan sonra gələnlər yurdunun qoruyucularıdır. O, getdiyi bütün ellərdə özündən sonra bir güvənli nəsil qoyub gedir ki, fəth etdiyi ərazilər zəifləməsin. Oğuz fəth etdiyi ərazilərin xalqlarını el etmək məharətinə sahib hökmdardır;

– Bu həm də Oğuzun və ondan sonra gələnlərin dövlətçilik siyasətinə sahib çıxmaq, liderlik qüdrətindən və bacarığından soraq verir.

İlahi gücə inanmaq, xalq və ordu ilə birliyi qorumaq, dövlətçilik prinsiplərinə sadiq olmaq, ədalətli, qətiyyətli və cəsarətli olmaq, eləcə də müdrik və uzaqgörən davranmaq hökmdarın əsas xarakterik cəhətləridir. Məsələn, Oğuz kömək etmək istəyib ona qoşulan qəbiləyə Uyğur adı verdi (yəni arxadan gəlib qoşulan anlamında). Övladını ağacın koğuşunda dünyaya gətirən ananın oğluna Qıpçaq adını verdi (ağacın çürüyü mənasındadır). Yağan güclü qara görə ordudan geridə qalan ailəyə Qarluk, yəni qarlı ləqəbini verir. Arabanı ilk düzəldən tayfalara Kanqlı, yəni arabaçılar, arabası olanlar adını verdi. Göründüyü kimi, bu gün bu nəsillər böyüyərək, daha geniş ərazilərə sahib olmuşlar. Hər biri öz dövlətini yaratmışdır.

Oğuz xan yürüş etdiyi ölkələri özünə tabe edərək, elə çevirir. Həmin yerlərdə ona tabe olan əhaliyə göstərdiyi xeyirxahlıq və məhəbbətə görə, böyüklər və yaşlılar ona "Oğuz ağa" adı verirlər. Əcdada xas xüsusiyyətlərdən biri də budur ki, böyüklərə hörmətlə yanaşıb, onlara xeyirxahlıq və mərhəmət göstərə ki, ətrafındakılara görk olsun. Oğuzun "ağa" statusu qazanması və getdiyi yerlərdə yurd salması özü hökmdarlığın əsas göstəricisidir.

Oğuz xaqanın əyilməzliyi, sarsılmazlığı, güc sahibi olması, iradəsi, möhkəmliyi, yurdu, dövlətçiliyi üçün fəth etdiyi ölkələrdə güzəştə getməməsi, həm də onun Dərbəndə yürüşündən bəlli olur. 8 ay mühasirədə saxlayır və sonunda məqsədinə çatır. Oğuz faydalı təklifləri müdrik ata Yuşi xocadan alan Qara Sülüyə çoxlu hədiyyələr verir və onu bütün ulusunun yurtçusu təyin edir. Bu onun bir hökmdara lazım və gərəkli olan xeyirxahlıq, qayğıkeşlik, sahibçıxma bacarığından soraq verir.

Oğuz fəth etdiyi ölkələrdə əvvəl başdan şərtini kəsərək deyirdi: "Siz də il olmağa və bac-xərəc verməyə razılaşsanız, çox gözəl, razılaşmasanız, döyüşə və savaşa hazırlaşın, çünki biz həmin anda gələcəyik" [4, s.17].

Xüsusən, Rəşidəddinin "Oğuznamə"sində Oğuzun Şamaxıya, Şirvana, Arana və Muğana, Bağdada, Bəsrəyə, İraqa, Əcəmə, Ruma, Dəməşqə, Misirə, Çinə və başqa bir çox ölkələrə yürüşləri qeyd olunur [4, s.22-23]. Getdiyi hər yeri il (el) etməyi bacardı.

Demək ki, Oğuz xaqan sözünün kəsəri ilə, cəsarəti və hünəri ilə də hökmdarlıq qüdrətini qazanmışdır. Hökmdar olmaq üçün birinci növbədə xalqı ətrafına cəm etməyi bacarmalı, xalqın etibarını qazanmalı, sözün kəsəri olmalıdır. Bütün bu deyilənlər ona xarakterik olan xüsusiyyətlərdən idi. Eyni və daha üstün liderlik keyfiyyətlərini ulu babalarımızın yurd yerlərini və qədim torpaqlarımızı geri qaytarmaqla tarix yazan Ali Baş Komandanımıza da aid etmək mümkündür. O bu müdrik və uzaqgörən siyasəti, rəhbərliyi ilə dövrümüzün ən müdrik atası və üstün lideridir.

Xan, xanlar xanı titulları Oğuzda yüksək sosial statusu bildirir. Orxon-Yenisey abidələrində xan titulu "ata" kimi də mənalandırılır. "Xanlar-xanı" titulu isə "xaqanlıq" mərtəbəsidir. Onu da qeyd edək ki, xanlar xanı titulu ilə yalnız Bayandur xan şərəfləndirilir [1, s.13].

Dastanda Oğuz elinin qəhrəmanı Oğuz xan çoxsaylı ölkələri fəth etdikdən sonra öz yurduna qayıdır və ulu toy edir, sonra yer üzünü oğlanları arasında bölür. Burada Oğuz xaqan öz nizamını qurur. Bölgü məsələsi ritual zamanı reallaşır. Beləliklə, əcdad kultu birbaşa ritual sistemi ilə bağlıdır. Burada bir anlama diqqət yetirək. Oğuz igidləri üçün dövlətin xalqın və ulu babalardan miras qalan müqəddəs torpağın, əcdadın toxunulmazlıq məqamı mütləq idi. Bu amillər Oğuz alpları üçün həyati bir məsələ idi. Oğuz burada öz böyüklüyünü, müdrikliyini ortaya qoyur.

Seyfəddin Rzasoyun fikrinə əsasən, "əcdad" və "dövlət" semantemləri oğuz etnokosmik düşüncəsinin bütün tarixi boyunca, hətta bir-birinin sinonimi kimi işlənmişdir. Yəni oğuzlara görə: Əcdad – dövlət, dövlət də – elə əcdaddır. Əcdad olmasa, dövlət də olmaz. Dövlətin varlığı – elə əcdadın varlığı deməkdir. Məsələn, orta əsrlər türk hökmdarlarının haqqında yazılmış kitablardakı "Oğuznamə" şəcərələri faktını yada salaq. Həmin tarix kitablarında konkret bir hökmdarın nəsil şəcərəsi ulu əcdad Oğuz kağanla başlanır və həmin hökmdara qədər davam edir. Şəcərənin başlanğıcında ilk əcdad Oğuz xan, sonunda həmin hökmdar durur. Tarixçidən də tələb olunurdu ki, Oğuz xandan konkret hökmdara qədər gələn nəsil şəcərəsi heç bir yerdə qırılmasın. Bu, nə məqsədlə edilirdi? Məqsəd həmin hökmdarın hakimiyyətini legitimləşdirmək, ona hüquqi əsas vermək, qanuni don geyindirmək idi. Bəs bu hüququn, legitimliyin əsasını nə təşkil edirdi? Əlbəttə ki, əcdad kultu. Nəsil şəcərəsi ulu əcdad Oğuz kağana gedib çıxmayan bir insan dövlətin başında dura bilməzdi. Bir insanın dövlət qurması üçün onun ilk əcdada bağlanması, başqa sözlə, Oğuz kağandan başlanan dövlət kultu sisteminə aid olması lazım idi (Əcdad kultu və oğuz dövlətçilik ənənəsi) [14].

"Kitabi-Dədə Qorqud" dastanında Qazanın hökmdarlıq qüdrətinə gəlincə görərik ki, onun üstünlükləri bir çox başqalarında olmayan sosial-siyasi statusu ilə bağlıdır. Onu eposda İç Oğuzun başçısı statusunda görürük. Qazan İç Oğuzun, həm də Qalın Oğuzun başçısıdır. Ümumiyyətlə, Oğuznamələr Oğuzların dövlətçilik, vətənpərvərlik, türkçülük, azərbaycançılıq düşüncələrinin ən kamil məcmuəsidir.

Oğuz bir çox xalqlara ad qoyur türkmən, qıpçaq, qanlı, karluk, kalaç və s. Oğuznamələrdən də göründüyü kimi, türk xalqlarının Beş Balıq bölgəsindən Qara dənizin şimalına və Adalar (Ege dənizi) dənizinə qədər yayılmış olmaları Oğuz xanın fəthləri ilə bağlıdır. Oğuzlar Oğuz xanın 24 nəvəsindən törəmişlər. Qıpçaq, qanlı, karluq və kalaçlar Oğuz xanın bəylərindən törəyiblər. Oğuz dövlətçilik ənənəsində 24-lük məclis sistemi Oğuz kağanın adı ilə bağlıdır. Ancaq digər tərəfdən, hunlarda 24-lük sisteminin olduğu məlumdur.

Seyfəddin Rzasoy haqlı olaraq, Oğuz xanı xalqını haqq dininə qovuşdurmaq üçün Tanrı tərəfindən göndərilmiş bir peyğəmbər-hökmdar olaraq göstərir. Beləliklə, "Oğuznamə" vahidi oğuz etnosunu bütövlükdə işarələndirən etnokosmik universumdur [14].

Əcdad kultu, elə dövlət kultu deməkdir. Vətən torpaqlarına, ata-baba ruhuna hörmət deməkdir. Oğuz tarixində dövlətçilik ənənəsinin əsasında Oğuz əcdad kultu durur. Oğuz dövlətçilik ənənəsi Əcdad Oğuz xanla başlanır və onunla da davam edir. Oğuz və onun davamçıları güclü və vətənpərvər olub, ata öyüdünə və əmanətinə sahiblənən, özlərindən sonra hakimiyyətə gələnlərə ötürə bilən qəhrəman hökmdarlar olmuşlar.

Oğuznamələrdə və "Kitabi-Dədə Qorqud" dastanında müşahidə olunduğu kimi, "Vətən" anlayışı Oğuz elinin iyirmi dörd sancaq bəyliyini əhatə edən geniş siyasi-coğrafi məkanı ifadə edir. Bu, oğuzların təsəvvüründə vətən torpağının miqyas və əzəmət baxımından böyük olduğu fikrini təsdiqləyir. Muxtar İmanovun araşdırmalarında qeyd olunduğu kimi, vətən torpağının gündoğandan günbatana qədər uzanan geniş bir ərazini əhatə etməsi türk epik təfəkkürünün səciyyəvi xüsusiyyətlərindən biridir. "Oğuz kağan" dastanında Oğuz kağanın "günəş – bayrağımız, göy üzü – çadırımız" deməsi, bunun bariz nümunəsidir. Bu cür nümunələr türklərin "tək Tanrı, tək xalq" deyib, cahan dövləti qurmaq istəyindən və düşüncəsindən xəbər verir. "Günəş – bayrağımız" fikri qədim türklərin vətən anlayışı ilə bağlı başqa bir inancını da yada salır. Həmin inancın başlıca mahiyyəti gündoğan tərəfin müqəddəs sayılması ilə bağlıdır: "Dünya düzəni ilə dövlət təşkilatı arasında bir bənzərlik və uyğunluq meydana gəlirdi. Günəşin doğması, batması, gecə-gündüz, yer və göy, uca dağlar, müqəddəs ormanlar dövlət təşkilatında və idarəçiliyində bir simvol mahiyyəti daşıyıb, çox mühüm rol oynayırdı. Dövlətçilik düşüncəsi özünü çox qabarıq olaraq mifologiyada da göstərirdi. Şərq tərəf günəşin doğduğu yer olduğuna görə, xüsusi önəm qazanırdı" [3, s.26-28].

Türk xalqlarında hökmdarlıq ənənəsi dövlətçilik təməli üzərində qurulmuşdur. S.Rzasoy qeyd edir ki, folklorda birmənalı olaraq dövlət kosmosun, dövlətsizlik isə xaosun paradiqmalarından biri kimi çıxış edir. Onun fikrinə əsasən, hökmdar xaosu kosmosa çevirən, özündə əcdadların mifik gücünü daşıyan fövqəlgüc kimi təqdim edilir [13, s.146].

Qədim türk dövlətçilik ideyalarının ritual-mifoloji baxımdan əks olunduğu dastanlara "Köç", "Şu" və "Oğuz xaqan" dastanlarını nümunə göstərə bilərik. Necə ki, "Köç" dastanında təsvir olunan Tanrı dağlarındakı "Qutlu Qaya" Vətən və Dövlət ideyasının simvoludur. O, xalqı ətrafına yığaraq, Vətən, el, oba, dövlət yaratmışdır. "Oğuz xaqan" dastanındasa Oğuz xaqan fəth etdiyi əraziləri el etmiş, böyük cəsarət, hünər göstərərək xalqı ətrafına yığmışdır. "Şu" dastanı da qədim türk dövlətçilik tarixini özündə geniş əks etdirən dastanlardandır. Burada qədim türk hökmdarının dövlət idarəçiliyində diplomatiyası, döyüşdə taktikası daha qabarıq göstərilmişdir. Eramızdan əvvəl IV əsrdə Qərbdən Şərqə doğru hərəkət edən Makedoniyalı İskəndərlə Kağan Şunun münasibətlərindən bəhs edən dastan özündə bir sıra tarixi faktları cəmləşdirir.

"Kitabi-Dədə Qorqud" dastanından göründüyü kimi, Bayandur xan sakral siyasi hakimiyyətin rəhbəridir, xanlar-xanıdır. Eposdan aydın olur ki, Bayandur xan heç bir boyda fəal iştirak etmir. Lakin Bayandur xan həmişə eposda təsvir olunan Oğuz cəmiyyətinin sakral siyasi rəhbəri statusundadır. O, daima siyasi rəhbərliyin önündə durur. Hərəkətsiz obraz olsa da, simvolik mahiyyətə malikdir. O, hakimiyyətin simvolu kimi, rəhbəri kimi həmişə başdadır. Yalnız mətnlərdə onun adı çəkilir. O sakral siyasi hakimiyyəti simvolizə edir.

"Kitabi-Dədə Qorqud"da Alp Aruz obrazının hökmdarlıq gücünə gəlincə, deyə bilərik ki, Qazanın dayısı Alp Aruza böyük dəyər verir, ona müraciət forması olaraq "bəyim" deyir. Bu onun mənəvi üstünlüyünü, ağsaqqallığını, böyüklüyünü, müdrikliyini əks etdirir. Alp Aruz Qalın Oğuzun ağsaqqalıdır. Qazan xan dövlətçiliyin idarə olunması işlərində ondan məsləhət alır. Alp Aruzla Qazan xan arasında mübarizə Qazan xanın ehtiyatsız davranışlarından, evini dəfələrlə yadelli düşmənlərə yağmalatmasından, bacısının əsir düşməsinə səbəbkar olmasından irəli gəlir. Deməк ki, "Kitabi-Dədə Qorqud"da qəhrəman dövlət başçısı əsasən iki obrazda – Bayandur və Salur Qazan obrazında özünü göstərir. Türk igidləri, alpları tarix boyu möhkəm gücə və sarsılmaz iradəyə sahib olmuşlar.

Qədim türklər haqqında tədqiqatlar aparan Lev Qumilyov "Türk" sözünün mənasının "güclü", "möhkəm" olduğunu bildirmişdir [11, s.48].

Türkün adı həmişə onun cəmiyyətdəki mövqeyini göstərmişdir. Bu fikir bütün türklərə, eləcə də azərbaycanlılara şamil edilir. Uşaq vaxtlarında onun ləqəbi, cavanlıqda rütbəsi, ahıllıqda isə titulu olurdu. Əgər o, xan idisə, titulu qohumluq, bölgə sisteminə görə dəyişmişdir.

Oğuz elinin igidi Salur Qazana gəlincə, o həm xanlar xanı, həm bəylərbəyi kimi təqdim olunur. O, dastanda Bayandur xandan sonra ikinci adamdır. O, bəzən alp igid kimi Bayandur xanı əvəz edir. Bayandur xan da, Salur Qazan da bəzən hökmdarlıq, elin başında durmaq baxımından eyni statusa malik olurlar. Belə ki, elin ağsaqqalı kimi ritual düzənləyir, elin igidlərini yığır. Dastana diqqət edək: "Qam ğan oğlu Bayandur xan yerindən durmuşdu. Hündür alaçığı göy üzünə dirənmişdir. Hər yerdə ipək xalça döşənmişdi". Dördüncü boyun başlanğıcı: "Bir gün Ulaş oğlu Qazan bəy yerindən durmuşdu. Qara yer üzərində uca evini tikdirmişdi. Min yerdə ipək xalça döşətmişdi. Hündür alaçıq göy üzünə dirənmişdi" [7, s.36-62]. Ağ ban ev oğuz düşüncəsində yalnız hökmdarın evi mənasında deyil, yurd, el mənasında da işlənir. "Ocağın gur yansın, heç sönməsin" "öyün-eşiyin ocaqsız və sahibsiz qalmasın" kimi alqışlar da məhz bu müqəddəsliklə bağlıdır. Burada qeyd olunan ocaq, yurd yeri ağban ev hökmdar Bayandur xanın, Qazanın düşüncə modelidir, simvoldur. Ağban ev ifadəsi dastanda hökmdarın yurdu, dincəldiyi məkan, ucalığın, paklığın rəmzi kimi işlənir. Həmçinin elin, nəslin, soyun davamçılarının sağlığı üçün "Qara dağların yıxılmasın", – deyilir. Dağ da ulu əcdadın sitayış yeri, inam və güvən məkanı olmuşdur. Səfa Qarayev "Qara dağımın yüksəyi oğul" – deyimini məhz bu semantik bütövə bağlayır [9, s.32].

Salur Qazan ağa, igidlərin arxası, soyun aslanı kimi təsvir olunur. Ağa – böyük, uca anlamına gəlir ki, bu da əcdad kultunun nişanəsi kimi anlaşılır. Bütün bu ifadələrin hamısı onun bir döyüşkən qəhrəman tipi olduğunu göstərir. Xatırladaq, Qazan xana "ağa", – deyə müraciət edilmişdir:

*Qaracığın qaplanı,*
*Qonur atın yiyəsi,*
*Uruz xanın ağası,*
*Bayındır xanın kürəkəni,*
*Qalın oğuzun dayağı, igidlərin arxası*
*Ulaş oğlu Salur Qazan.* [6, s.45-49]

Salur Qazan oğuzların sərkərdəsi, yoxsulların, igidlərin arxası olmaqla yanaşı, elinin sərkərdəsi idi. Dastanda onu həm də bu titulda görürük. Oğuzların "kafir" adlandırdıqları düşmənləri ilə apardıqları bütün müharibələrin başında Salur Qazan durur. Salur Qazanın dastanda "bəylərbəyi" kimi təqdim olunması, onun bütün bəylərin başçısı, sərkərdəsi olduğunu, "xanlar xanı" kimi təqdim olunması isə Qazanın Bayandur xandan sonra Oğuz elinin həm də siyasi başçısı, yəni hökmdarı, xaqanı olduğunu göstərir.

Səfa Qarayev araşdırmalarından birində qeyd edir ki, "Ənənə qoruyucusu olan Qazan təbiidir ki, "mədəni qəhrəman yadigarları"nın qoruyucusudur. Xatırlatmalıyıq ki, şah, xan, bəy kimi obrazların mədəniyyətdəki yeri mədəni qəhrəmanın, demiurqun sinxron plandakı təzahürü kimi anlaşılmalıdır. Onlar mədəni qəhrəmandan qalan ənənələrin "hüquqi varisi" kimi təzahür edirlər. Məhz bu semantika ilə əlaqədardır ki, onlar kult səviyyəsinə yüksəldilirlər [10, s.129]. Bəzən nağıllarda varislik prinsipi pozulur. Hakimiyyətin atadan oğula keçməsi ənənəsi gözlənilmir. Eyni zamanda hakimiyyət sadəcə, dövlət quşunun vasitəsi ilə həyata keçirilir. Azərbaycan nağıllarında taxta oturacaq hökmdarın əvvəlcədən seçilməsi ilə bağlı xüsusi ritualın mövcudluğu diqqəti cəlb edir. Bu mətnlərdə "dövlət quşu"nun başa qonması kimi motivlər hökmdarlığın ilahi və ya müqəddəs təsdiqini ifadə edən ənənəvi təsəvvürləri əks etdirir. "Dövlət quşu" Azərbaycan folklorunda xoşbəxtlik, səadət, taleyin açılması, taxt-tac rəmzi və hakimiyyətin ilahi şəkildə verilməsi anlamını daşıyan mifoloji-ritual mənşəli bir simvoldur. "Dövlət quşu" insanın taleyinin Tanrı tərəfindən müəyyənləşdirildiyini göstərən kosmik simvol kimi anlaşılır.

Məsələn, "Dövlət quşu" adlı nağılda quş yoxsul bir oğlanın başına qonur və onun taleyi dəyişir. Muxtar İmanov araşdırmalarında qeyd edir: "Hökmdarlığı ilahi mənşəyə bağlamağın ifadəsidir ki, nağıllarda padşah olmaq başına dövlət quşu (göylərlə bağlı ilahi qismət) qonmaqla mümkün olur. Hökmdar seçmə mərasimlərində hökmdar seçiləcək adamın keçə və ya xalı üzərində göyə qaldırılması, günəşin hərəkəti istiqamətində doqquz dəfə döndərilərək irəli aparılması, onun (hökmdar seçiləcək adamın) göyə – günəşə tərəf dörd dəfə ox atması hakimiyyəti ilahi mənşə ilə əlaqələndirmək faktlarıdır. Bütün bu kimi faktlara baxmayaraq, türk xalqları hökmdarı Tanrı ilə eyniləşdirmək təsəvvüründən uzaq olmuşlar" [13, s.43]. Dövlət quşu ilə bağlı Azərbaycan folklorunda çoxsaylı nağıllar və dastanlar mövcuddur. Bu mətnlərin əksəriyyətində yad eldən gələn qərib birinin başına dövlət quşunun qonması nəticəsində varislik ənənəsi pozulur və hakimiyyətin kimə məxsus olacağı ilə bağlı ənənəvi qaydalar dəyişir. Belə nağıllardan – "Ax-vax", "Məlik Məhəmməd və Məlik Əhməd", "Keçəl Məhəmməd", "Göy muncuq" adlarını çəkmək olar. Dövlət quşunun başa qonması qəhrəmanın xalq tərəfindən padşah kimi tanınmasının rəmzidir.

Ümumiyyətlə, nağıllarda qəhrəman adətən sadə, kasıb, "xeyirxah, mərd və xalq içindən çıxmış" olur, bu da ədalətli rəhbərlik və xalq-hökmdar münasibətinin folklor ideologiyasını əks etdirir.

Azərbaycanın müxtəlif bölgələrində keçirilən mərasimlərdə, xüsusilə oğlan toylarında bəyə ucalıq, nüfuz və "taxt sahibi" kimi baxılması qədim ənənələrin davamı kimi diqqət çəkir. Bu mərasimlərdə bəyi ətraf təsirlərdən qorumaq məqsədilə sağdışların (yançıların) xüsusi rolu

müşahidə olunur. Azərbaycanın bir sıra şimal bölgələrində isə bu funksiyanı bəyin yaxın dostları icra edirlər. Onlar bəyin toy mərasimi boyunca hər hansı xoşagəlməz hadisədən, o cümlədən simvolik məna daşıyan əşyalarının – məsələn, ayaqqabı və ya pencəyinin oğurlanmasından qoruyurlar. Bəyin "bəylik taxtında" əyləşdiyi anda onun şəxsi əşyasına toxunmaq, ənənəvi təsəvvürə görə, yolverilməz hesab olunur və belə hal baş verdikdə bəyin dostları tənqid edilir. Bu inanc həmin gün bəyin öz hökmdarlıq zirvəsinə, rəmzi hakimiyyət məqamına yüksəlməsi ilə əlaqədar formalaşmışdır; buna görə də onun toxunulmazlığı, o cümlədən əşyalarının qorunması zəruri sayılır.

Oğuz Xaqanın transformativ paradiqması kimi, Qazan xan əcdad kultunun alp ərən paradiqması kimi götürülür. Əfzələddin Əsgərə görə, "Dədə Qorqud"dakı Oğuz ərənləri, alp ərənlər, qazi ərənlər ifadəsi şaman inancındakı yardım edən ruhlara bağlıdır. Onun fikrincə, Tuva şamançılığında eren adlanan bu ruhlara şamanın əcdadları da aiddir. "Oğuznamələrin əcdadlar haqqında dastanlar olduğunu yada salsaq, buradakı ərən adının əcdadları ifadə etməsini qəti şəkildə söyləmək mümkündür. Ona görə də Oğuznamədə tez-tez qarşılaşdığımız alp ərənlər, bəy ərənlər oğuz ərənlər haqqında qovuşmuş əcdadların yaşayan ruhlarını ifadə edir". Bu ərənlərin əksəriyyəti Oğuznamələrdə pir kimi verilir.

*Dədə Qorqud biliklü yeddi bilisün versün.*
*Əmir Sülüyman uğurlu (uğurun) versün.*
*Salur Qazan sadətlü yeddi səadətün vürsün*
*Bayandur xan dövlətlü yeddi dövlətün versün.*
*Alp Aruz versin* [2, s.175-176].

Bayandur xandan fərqli olaraq Qazan xan bütün dastan boyu daima hərəkətdədir, daima məsələlərin mərkəzindədir. O, bir dinamik obrazdır və daha çox alp-ərən metaforaları ilə, epitetləri ilə tanınır. Dastan boyu Qazan xanın baş kəsməsi, igidlik göstərməsi, daha çox alp ərənlik üzərində qurulub. Bu yarımfəsildə əcdad kultunun iki istiqamətdən – həm sakral mistik, həm də daima hərəkətdə olan obraz kimi öyrənilməsi nəzərdə tutulur.

Hikmət Quliyev müdrik Qoca arxetipini araşdıran bu arxeotipə daxil olan obrazların hökmdar semantikasında təzahür modellərindən söz açır. Müəllif Müdrik Qoca arxetipinə aid olan obrazların ritual situasiyasında da Qazan xanın, Bayandur xanın (rəhbər-hökmdar kontekstində) gözdən keçirilməsinin vacib məsələlərdən biri olduğunu bildirir. Onun gəldiyi qənaətə görə, hökmdar və rəhbər obrazların müdriklik təsvirləri ilə xarakterizə olunması geniş yayılmış ənənədir. Müdrik Qoca arxetipini araşdırmaq bizə bir sıra obrazlara bu arxetipin paradiqmaları kimi yanaşma imkanı verir. Bu baxımdan Oğuz xan, Bayandur xan, Qazan xan kimi obrazlar Müdrik Qoca arxetipinin paradiqması kimi öyrənilə bilər. Hökmdar obrazları özlərində müdrikliyi və qəhrəmanlığı vəhdət şəklində birləşdirirlər [12, s.41-44].

Qeyd etməliyik ki, burada İsgəndər, dünyanın nizamında dəyişiklik etmək istəyən qəhrəmandır. O, bir hökmdar olaraq əbədi həyat suyundan içsə idi, dünyanın mövcud nizamında müəyyən dəyişikliklər baş verə bilərdi. İnsanlar əbədi həyat suyundan içərək ölümsüzlüyə nail ola bilərdilər.

Hökmdar deyəndə, ədalətli idarəçilik və hakimiyyət yada düşür, bu amillərin özünün də arxasında xalq və millət amili durur. Bunların hamısının əvvəlində bir əcdad amili var. Azərbaycan folklorundan, nağıllardan da gördüyümüz kimi, hökmdarlığın tanrı iradəsi və xalqın seçimilə olması inamı ənənə halını almışdır. Bütün bunlar taxta çıxmanın Tanrı iradəsi ilə bağlı olması inamını əks etdirən faktlardır. Hökmdarın Tanrı ilə bağlılığı "Dədə Qorqud" dastanında "Buğac", "Bamsı Beyrək", "Yegnək", "Əmran" boylarında təsadüf edilir. Ozan həmin boylarda söhbətə Bayandur xanın hündür çadırlar qurdurmasından, neçə-neçə yerdə ipək xalçalar döşədib, böyük şadlıq məclisi keçirməsindən başlayır. Boyun əvvəlindəcə ozanın hökmdardan söz açmağını əslində göydən, Göy

Tanrıdan söz açmaq kimi də başa düşmək olar. Bu boylarda hökmdarın ucalığından hörmətindən bəhs olunur: "Bir gün Qamğan oğlu xan Bayındır yerindən durmışdı. Şami günlügi yer yüzinə dikdirmişdi. Ala sayvanı gög yüzinə aşanmışdı. Bin yerdə ipək xalçası döşənmişdi" [8, s.39].

Ulu əcdadlarımızdan gələn milli mənəvi dəyərlər vardır ki, bu dəyərləri hökmdar dediklərimiz, öz həyat tərzlərinə daxil etməlidirlər. "Dədə Qorqud" dastanında Oğuz bəyləri ad-sanı ağılları, hörmətləri ilə yox, yalnız qılıncları ilə və açdıqları süfrələri ilə qazanmışlar. "Cəmiyyətdə ad-san qazanmağın və hakimiyyətdə mövqe tutmağın qılıncdan və süfrədən keçən yolu hökmdarın öz oğluna da aiddir. Başqaları kimi, hökmdarın doğmaca oğlu da ad-sanı hünər göstərmək və xalqa arxa-dayaq olmaqla qazana bilir" [3, s.32].

Azərbaycan folklorunda hökmdarlıq anlayışı, türk xalqlarının qədim dövlətçilik təsəvvürləri və sosial quruluşunu əks etdirir. Hökmdar obrazını simvolizə edən başlıca amillər isə xalq, dövlət və ordudur. Xalqın və ordunun birliyi dövlətə, dövlətin gücü isə hökmdara bağlıdır. Hökmdarı güclü olan xalq heç vaxt yenilməz.

Hökmdarlıq motivinin folklorda bu qədər mühüm yer tutması türk siyasi mədəniyyətinin əsas komponentləri – xaqanlıq institutunun mənəvi legitimliyi, Tanrı tərəfindən verilmiş hakimiyyət anlayışı, qəhrəmanlıq və liderlik etnosu, eləcə də boy, tirə və qəbilə quruluşu kimi sosial institutlarla sıx bağlıdır. Dastanlarda, miflərdə və rəvayətlərdə hökmdarın gücü yalnız fiziki qüdrətlə deyil, müdriklik, ədalət, uzaqgörənlik və toplumun birliyini qoruma qabiliyyəti ilə ölçülür.

## Nəticə / *Conclusion*

Türk xalqlarının dövlətçilik təsəvvürlərində hakimiyyətin ilahi mənşəyi ideyası xüsusi yer tutur. Göy Tanrı tərəfindən seçilən xaqan və ya hökmdar toplumun həm siyasi başçısı, həm də mənəvi dayağı kimi qavranılır.

– Oğuznamə ənənəsində hökmdarlıq ailə-nəsil ardıcıllığı, Tanrı buyruğu və qəhrəmanlıq missiyası ilə əsaslandırılır. Bu, türk dövlətçilik mədəniyyətində legitimliyin aşağıda qeyd olunan əsas xəttini təşkil edir: nəsil, soykök, sakral güc, tanrısal iradə, qəhrəmanlıq və müdriklik.

– Azərbaycan folklorunda hökmdarlıqla bağlı motivlər daha çox "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları və qəhrəmanlıq rəvayətlərində sistemli şəkildə özünü göstərir. Bu mətnlərdə lider həm döyüşkənliyi, həm də cəmiyyətin daxili nizamını təmin edən ədalət sahibi kimi səciyyələndirilir.

– Məlum olur ki, hökmdar dediklərimiz boy başçıları, el ağsaqqalları, hərbi-siyasi liderlər, sərkərdələr və müasir baxımdan yanaşdıqda Ali Baş Komandan dövlət quruluşunun müxtəlif pillələrini əks etdirən simvoldur.

Hökmdar anlayışı həm də ucalığı, xalqın önündə dura bilmək kimi sakral gücə sahib olmaq bacarığını, birliyini özündə birləşdirir.

– Folklor mətnlərində hökmdarın ətrafında formalaşmış məsləhət şurası, igidlər zümrəsi və cəmiyyətin bütövlüyünü təmin edən kollektiv dəyərlər qədim türk dövlətçilik ənənəsinin mühüm elementləridir.

Əcdad kultu baxımından yanaşdıqda, hökmdarlıq varisliyi yalnız nəsil ardıcıllığı ilə məhdudlaşmamalı, eyni zamanda əcdad ənənələrinə, sülalənin köklərinə söykənməlidir. Hökmdarın varislik hüququ, həm əcdad irsinin qorunması, həm də mədəni yaddaşın davam etdirilməsi baxımından mühüm rol oynayır. "Əcdad" anlayışı isə xalqın tarixi mənşəyini, kökünü və soy bağlılığını ifadə edən əsas kateqoriyalardan biridir. Bu termin təkcə bioloji nəsil ardıcıllığını deyil, həm də bir xalqın mədəni yaddaşını, mənəvi irsini özündə ehtiva edir. Əcdad öyüdünü yaşatmaq, onların bizlərə əmanət qoyub getdikləri torpaqlara sahib çıxmaq hər birimizin vətəndaşlıq borcuna çevrilməlidir.

## Ədəbiyyat / *References*


1. Dadaşova Reyhan. Azərbaycan dastanlarında şəxs adlarının folklor semantikası (Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş Avtoreferat), 2018.
2. Əsgər Əfzələddin. Böyük Türkmanlar və Türk dastan yaradıcılığı tarixinin Oğuznamə dövrü. – Bakı: Sabah, 2024, 408 s.
3. İmanov Muxtar. Folklor və dövlətçilik düşüncəsi. I kitab. – Bakı: Elm və təhsil, 2016, 312 s.
4. Rəşidəddin Fəzlullah. Oğuznamə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 108 s.
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. – Bakı: Öndər, 2004, 376 s.
6. Kitabi-Dədə Qorqud (tərtib, transliterasiya, sadələşdirilmiş mətn və müqəddimə: F.Zeynalov və S.Əlizadə). – Bakı: Yazıçı, 1988, 265 s.
7. Kitabi-Dədə Qorqud. – Bakı: Altun kitab, 2022, 144 s.
8. Kitabi-Dədə Qorqud – Kitabi-Dədə Qorqud Ensiklopediyası. İki cilddə, I c. – Bakı: Yeni Nəşrlər Evi, 2000.
9. Qarayev Səfa. Dədə Qorqud eposu: Xan konsepti, ərgənlik metaforaları və psixoloji komplekslər. – Bakı: Savad, 2020, 386 s.
10. Qarayev Səfa. Mifoloji xaos: strukturu və poetikası. – Bakı: Elm və təhsil, 2016, 212 s.
11. Qumilyov Lev. Qədim türklər. – Bakı: Gənclik, 1993, 536 s.
12. Quliyev Hikmət. Müdrik Qoca arxetipinin semantik strukturu və paradiqmaları. – Bakı: Elm və təhsil, 2016, 216 s.
13. Rzasoy Seyfəddin. Folklor və dövlətçilik düşüncəsi. I kitab. – Bakı, Elm və təhsil, 2016, 312 s.
14. https://www.xalqcebhesi.az/news/culture/24072.html
15. https://ikisahil.az/post/153440-isa-hebibbeyli-heyder-eliyev-gorkemli-tarixi-shexsiyyetdir


## Парадигма правителя в культе предков

**Зумруд Мансимова**
Доктор философии по филологии, доцент
Отделения Общественных наук НАНА
E-mail:zumrudibrahimqızı@gmail.com

**Резюме.** В статье к исследованию привлечен вопрос о парадигме правителя в культе предков в азербайджанском фольклоре. Исследовано как выражено отношение к принципу власти в ряде Огузнаме, принципам осуществления государственной власти огузским хаганом, желание вершить справедливость, мужество, умение распоряжаться землёй предков отечества и др. вопросы. Здесь уделено внимание к предкам, государству, умению владычества и правления. В статье проведён анализ мышления огузов о государственности и патриотизме в контексте культа предков. Вместе с тем уделено внимание к дошедшим до нас национально-нравственным ценностям наших древних предков, ценностям правления и власти, а также традициям наследования. Также в статье анализу подвергается понятие «правление» и смысл связанного с ним мотива «птица власти» и его функционально-семиотические характеристики.

**Ключевые слова:** предок, государство, Огуз, «птица власти», армия, народ